**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT: 78.021.4**
**DOI: 10.52094/3005-9941.44.2023.0125**

**Nigar Akif qızı Məlikova**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**dissertant**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**baş müəllim**
**Əməkdar artist**
**E-mail: m.nigar79@mail.ru**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XURAMAN QASIMOVANIN VOKAL SƏNƏTİNİN İNKİŞAFINDA ƏHƏMİYYƏTİ

**Xülasə:** Təqdim olunan məqalədə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin mədəniyyət və incəsənət nümayəndələrinə olan qayğısından bəhs olunur. Bundan irəli gələrək, Ulu öndər Heydər Əliyevin Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələri, Xalq artistləri Fidan və Xuraman Qasımovaların vokal ifaçılıq sənətinə olan diqqəti işıqlandırılır. Məqalənin əsas istiqamətini professor Xuraman Qasımovanın Heydər Əliyev haqqında olan xatirələri təşkil edir. Məqalə Ulu öndər H.Əliyevin Qasımova bacılarının sənətinə diqqətinə, müxtəlif konsertlərdə iştirakına və dəyərli tövsiyələrinə əsaslanılmışdır.

**Açar sözlər:** Heydər Əliyev, Xuraman Qasımova, xatirə, vokal, opera, konsert

Azərbaycan mədəniyyətinə və incəsənətinə yüksək dəyər verən, sənəti və sənətkarı qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev Fidan və Xuraman Qasımova bacılarına böyük ehtiramla yanaşmış və onların vokal ifaçılıq sənətini yüksək dəyərləndirmişdir. Qasımova bacıları həssas musiqi zövqünə malik Heydər Əliyevin sevimli ifaçılarından olmuşlar. Məlumdur ki, H.Əliyevin musiqinin incəliklərinə dərindən bələd olması hətta musiqişünasların marağına səbəb olmuşdur. Müasir cəmiyyətin yüksək amallar uğrunda inkişaf zirvəsinə gedən yolunun başlanğıcında qadının rolunu dəyərləndirən H.Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan qadınının fəaliyyətinə hər zaman xüsusi diqqətlə yanaşmışdır. Ona görə də Ulu öndərin Azərbaycanın görkəmli ifaçıları olan Fidan və Xuraman Qasımova bacılarının sənətinə olan vurğunluğu heç də təsadüfi deyildir.



**Şəkil 1. Ümummilli lider Heydər Əliyev Fidan və Xuraman Qasımova bacıları ilə**

Heydər Əliyevin Fidan və Xuraman Qasımova bacılarına göstərdiyi böyük diqqət və qayğı əslində ulu öndərin Azərbaycan qadınına olan münasibətinin təzahürü idi. H.Əliyev böyük uzaqgörənliklə dərk edirdi ki, bəşər sivilizasiyasının meydana gəlməsində və inkişaf etməsində, onun müasir dövrdə yüksək nailiyyətlər əldə etməsində qadınların əvəzsiz rolu və xidmətləri danılmazdır. Ümummili lider hesab edirdi ki, Qasımova bacılarının Azərbaycan vokal ifaçılığının inkişafında rolu ictimai-siyasi şəraitlə bağlı olduğu kimi, həm də dövlətin və onun rəhbərliyinin göstərdiyi münasibətdən də asılıdır. Buna görə də hakimiyyətdə olduğu bütün dövrlərdə Qasımova bacılarına olan diqqəti, eləcə də incəsənət nümayəndələrinə həssas qayğını formalaşdırmağa nail olmuşdur.

Heydər Əliyevlə Fidan və Xuraman Qasımova bacılarının tanışlığı uzun illərə söykənir. Belə ki, Azərbaycan opera ifaçılığı tarixində ilk dəfə olaraq, Fidan Qasımova Cenevrə şəhərində keçirilən beynəlxalq müsabiqədə laureat adını qazanmışdı və opera səhnəsində ilk addımlarını atırdı. Həmin dövrdə “Koroğlu” operasının yeni quruluşda tamaşaya qoyulması zamanı Qasımovlar ailəsi ilə görüşən H.Əliyev onlara müraciətlə soruşur: *“Bəs biz nə zaman Sizin ifanızda Nigar partiyasını dinləyəcəyik?”* [2, s.5]. Ulu öndərin sözləri hər bir şəxs tərəfindən artıq real addımlar atmağın vaxtı olduğuna işarə idi. Əslində, Xuraman xanım Nigarın partiyasına bələd idi və bütün musiqi nömrələrini əzbər bilirdi. X.Qasımovanın parlaq və işıqlı soprano səs tembri, təmiz və aydın diksiyası Nigar partiyasının öhdəsindən gəlməyə tam şəkildə imkan verirdi. Təsadüfi deyildir ki, maestro Niyazi Xuraman xanımın səsini *“brilyant kimi parlaq”* təsvir edir, rus dirijoru Y.Mravinski isə onu *“Bakı bülbülü”* adlandırırdı [2, s.5].

Qasımova bacılarının ifasında A.Zeynallının “Ölkəm” romansı doğma vətənin tərənnümü kimi səslənərək, dinləyicilərdə böyük vüqar hissi oyadırdı. Heydər

Əliyev onların hər zaman sənətini izləyərək, uğurlarını dəyərləndirirdi. Təsadüfi deyildir ki, X.Qasımova iki möhtəşəm müsabiqədən – əvvəlcə Afinada keçirilən Mariya Kallas adına Beynəlxalq müsabiqədə birinci yer və Qran-Pri (1981), daha sonra isə Moskvada keçirilən P.İ.Çaykovski adına VII müsabiqədə ikinci yeri (1982) qazandıqdan sonra o, həmin il Heydər Əliyevin fərmanı ilə respublikanın Əməkdar artisti fəxri adı ilə təltif edilmişdir. Növbəti illərdə X.Qasımovaya Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordeni məhz Heydər Əliyev tərəfindən təqdim edilmişdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Fidan və Xuraman Qasımova bacılarının yaradıcılığını izləmiş və onlara böyük mənəvi dəstək göstərmişdir. Ulu öndər işi ilə əlaqədar 1982-ci ildə Moskvaya getdikdən sonra da onlara olan xüsusi qayğı və diqqətini əsirgəməmişdir. SSRİ dövründə ən məsul vəzifədə çalışarkən də onun diqqəti Azərbaycanın sənət adamlarının üzərində idi. H.Əliyev Qara Qarayev, Rəşid Behbudov, maestro Niyazi, Fikrət Əmirov və başqa tanınmış sənət adamlarının əməyini yüksək qiymətləndirmiş, onların dünya miqyasında tanınmasında müstəsna rolu olmuşdur. Hər mükafata təqdim olunan şəxs, onun əlindən təqdimatı alarkən daha artıq məsuliyyət hiss edərək, mükəmməl olmağa çalışırdı.

Heydər Əliyev Azərbaycan incəsənətinin dünyaya tanıtdırmaq və təbliğ etmək məqsədilə xarici ölkələrə olan bütün rəsmi səfərlərində Qasımova bacılarını heyətə daxil edirdi. Bu isə sənətçi bacılara böyük ruh yüksəkliyi verir və onları yeni yaradıcılıq uğurlarına sövq edirdi. H.Əliyevin iştirak etdiyi mötəbər tədbirlərdə və konsertlərdə hər zaman Fidan və Xuraman Qasımova bacılarının ifasına xüsusi yer ayrılırdı.

Azərbaycana rəsmi səfərə gələn İngiltərə, Almaniya, Türkiyə və digər ölkələrin rəsmi heyətlərinin şərəfinə təşkil olunan konsertlərdə onlar çıxış edərək, dövlətimizin mədəni səviyyəsini, müasirliyini və Avropa ənənələrinə əsaslanan vokal imkanlara malik olduğunu nümayiş etdirirdilər. Müxtəlif ölkələrin prezidentləri, baş nazirləri və digər yüksək rütbəli məmurları qarşısında çıxış edən Qasımova bacıları Azərbaycan mədəniyyətinin yüksək səviyyəsinin əsl siması idilər. Qasımova bacılarının müxtəlif ölkələrin, xüsusilə Qərbi Avropanın görkəmli bəstəkarlarının əsərlərini repertuarlarına daxil edərək, incə akademik zövqü və yüksək professionallığı nümayiş etdirirdilər.

Xuraman xanım həmin illəri belə xatırlayır: *"Rusiyada ölkə başçılarının görüşü olduğu zaman Heydər Əliyevin dəvəti ilə mən o görüşlərin bədii hissəsində çıxış edərdim. Hətta bir dəfə Qırğızıstan prezidenti Əsgər Akayev Bakıya gələrkən onun şərəfinə Gülüstan sarayında ziyafət verilirdi. Bu ziyafətdə mən də iştirak edirdim. Akayev mən əyləşdiyim masanın yanından ötərkən dayandı və "Bu Moskvada oxuyan qızdımı?" dedi. Heydər Əliyev gülərək dedi ki, yadımdadır, elə o zaman da sən bu qızın çıxışını xüsusi qeyd etmişdin"* [3, s.4].

Türkiyə Cümhuriyyəti ilə mədəni əlaqələrin yaradılmasına çalışan və bu istiqamətdə mühüm layihələrə imza atan Heydər Əliyev dostluq və qardaşlıq münasibətlərinin yaradılmasına çalışırdı. Bu münasibətlə H.Əliyev görüşlərin rəsmi hissəsindən sonra Azərbaycan mədəniyyətinin nailiyyətlərini nümayiş etdirmək məqsədilə musiqili mərasimlərin keçirilməsinə xüsusi diqqət verirdi. 1994-cü ildə Türkiyənin baş naziri olmuş Tansu Çillərin iştirakı ilə olan tədbirdən xatirələr maraq doğurur: *"... Tansu Çillər Türkiyənin başbakanı olarkən respublikamıza səfəri olmuşdur. Onun şərəfinə verilən ziyafətdə mən İstanbula həsr olunmuş mahnı oxudum. O zaman Tansu Çillər ifamı bəyənərək mənimlə maraqlanmışdır. Həmin zaman Heydər Əliyev məni çağıraraq Tansu Çillərlə tanış etdi və dedi ki, Xuraman xanım və onun böyük bacısı Fidan xanım hazırda Türkiyədə İstanbul şəhərində çalışırlar. Türkiyə üçün gənc vokal ifaçılar yetişdirirlər. İstəyirəm ki, siz onları yaxından tanıyasınız"* [3, s.4]. Tansu Çillər isə Qasımova bacılarının sənəti ilə artıq tanış olduğunu bildirib.

Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev hər zaman olduğu kimi, Qasımova bacıları ilə sıx təmasda olmuşdur. Xüsusilə bu illərdə səhhəti ilə bağlı müəyyən problemlər yaşayan X.Qasımova onun diqqət mərkəzində olmuşdur. 1994-cü ildə Məkkə ziyarətinə gədən Heydər Əliyev Azərbaycan nümayəndə heyətinin tərkibinə X.Qasımovanın daxil edilməsinə göstəriş vermiş və onun mənəvi cəhətdən möhkəmlənməsinə imkan yaratmışdır. Heydər Əliyevin Azərbaycan incəsənət nümayəndələrini müqəddəs Məkkə şəhərinə ziyarətə aparması məqsədyönlü şəkildə düşünülmüşdü. Təsadüfi deyildir ki, görkəmli bəstəkar Arif Məlikov həmin səfərdən ilhamlanaraq, Heydər Əliyevə həsr etdiyi "Əbədiyyət" simfoniyasını ərsəyə gətirir. Eləcə də bu səfər Xuraman xanıma da təsirsiz ötüşməmiş və bir çox tanınmış bəstəkarların "Ave Mariya" əsərlərindən ibarət "Ave Mariya konserti"ni verir. Həmin konsertdə orkestrə Xalq artisti, professor Fərhad Bədəlbəyli dirijorluq etmişdir.

1995-ci ildə Qasımova bacıları M.Maqomayev Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Qoşa qanad" adlı solo konsert verirlər və həmin konsertdə Heydər Əliyevin ailə üzvləri iştirak edirlər. Konsertin birinci hissəsində Xalq artistləri Çingiz Sadıqov və Fərhad Bədəlbəyli fortepianoda, ikinci hissəsində isə simfonik orkestr onları müşayiət edir.

1996-cı ildə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində "Barokko musiqi gecəsi"ndə Ulu öndərin iştirakı ifaçıları daha da ruhlandırır. Burada təşkil olunan daha bir konsert 1997-cı ildə keçirilir. Həmin konsertdə Heydər Əliyevlə yanaşı, dünya şöhrətli musiqiçi M.Rostropoviç və onun həyat yoldaşı, görkəmli vokal ifaçısı Q.Vişnevskya və digər tanınmış simalar iştirak etmişlər.



**Şəkil 2. Ümummilli lider Heydər Əliyev, M.Rostropoviç və Q.Vişnevskaya Qasımova bacılarının konsertində**

Növbəti gün konsert iştirakçılarını öz iqamətgahında qəbul edən Heydər Əliyev Qasımova bacılarının Türkiyədəki fəaliyyəti maraqlanır və onlara vətənə qayıdaraq, öz şəxsi vokal məktəblərini yaratmağı tövsiyə edir. Lakin Xuraman xanımın səhhəti ilə əlaqədar olaraq, 1997-ci ilə Türkiyədə müalicəsini davam etdirməli olur.

Xuraman xanımın Heydər Əliyevlə bağlı maraqlı xatirələrindən biri də onun dahi bəstəkar F.Əmirovun “Sevil” operasında əsas qəhrəmanın obrazı ilə bağlıdır. Belə ki, Azərbaycan professional teatr sənətinin yaranmasının 125 illiyi münasibətilə 15 noyabr 1998-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında F.Əmirovun “Sevil” operası yeni quruluşda tamaşaya qoyulmuşdur. Azərbaycanda mədəni tədbirlərin keçirilməsini daima nəzarətində saxlayan H.Əliyev operaya tamaşa etmək üçün teatra gəlmiş və burada böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur. Onu da vurğulayaq ki, həmin dövrdə ölkəyə rəhbərlik edən H.Əliyevin tövsiyəsi ilə Mehriban xanım Əliyevanın və ABŞ-ın Bakıdakı səfirinin həyat yoldaşı Enn Kozlariçin təşəbbüsü və həmsədrliyi ilə “Azərbaycan Mədəniyyətinin Dostları” Fondu yaradılmışdır. Fondun əsas məqsədi Azərbaycan mədəniyyətinin inkişafına yönəlmişdi. Sevil” operasının da hazırlanmasında Fond yaxından dəstək göstərmiş və tamaşanın bütün xərclərini qarşılamışdır [4].

Xalq artisti Fərhad Bədəlbəylinin bədii rəhbərliyi ilə hazırlanmış “Sevil” operasının yeni quruluşunda Sevil partiyasını Xuraman Qasımova, Balaşı isə Xalq artisti Azər Zeynalov ifa etmişdir.

Böyük uğurla keçən tamaşadan sonra H.Əliyev özünəməxsus bir təmkinlə səhnə arxasına keçərək, yaradıcı kollektivlə görüşür. Ulu öndər "Sevil" tamaşasının müvəffəqiyyətlə tamaşaya qoyulması münasibətilə iştirakçıları səmimi qəlbdən təbrik edərək, onlara yaradıcılıq uğurları arzuladı. H.Əliyev səmimi söhbəti zamanı F.Əmirovla olan şəxsi və dostluq münasibətlərindən, "Sevil" operasının ilk dəfə səhnəyə qoyulmasından və həmin tamaşada iştirakından, ən əsası isə bəstəkarla əsərin yazılması ərəfəsində olan görüşlərindən bəhs edərək, iştirakçıların böyük marağına səbəb oldu. Operaya hədsiz bir diqqətlə tamaşa edən H.Əliyev müşahidə etdiyi ən kiçik detalları belə onlarla bölüşərək, ilk və indiki tamaşa arasında hətta müəyyən müqayisələri nəzərə çatdırdı. Ulu öndər operanın indi daha müasir, dekorasiyaların cəlbedici olduğunu bildirərək, tamaşada əməyi olan hər bir kəsi qiymətləndirdi. Söhbət zamanı özünəməxsus bir məntiqlə H.Əliyev sözü musiqiyə, ardınca isə Xuraman xanımın ifasına yönəltdi: "*Xuraman Qasımova həmişə olduğu kimi indi də bizi valeh etdi"* [2, s.6].

Xuraman xanım haqqında əsl musiqişünas mütəxəssis kimi yanaşma nümayiş etdirən Heydər Əliyev görkəmli ifaçının çıxışını belə dəyərləndirdi: *"Bu, Xuraman xanımın opera səhnəsində ilk çıxışı deyildir. O, bir çox rollarda yüksək səviyyədə çıxış edib. Ancaq bu gün o, yeni bir tamaşada tamamilə yeni səpkidədir"* [2, s.6]. H.Əliyevin sözlərini cavablandıran X.Qasımova isə bildirdi: *"Sevindirici haldır ki, Siz ikinci dəfə bu tamaşaya mənim iştirakımla baxdınız. Xatırlatmaq istəyirəm ki, bu tamaşa sonuncu dəfə 17 il əvvəl səhnələşdirilmişdir. Məlumdur ki, müəyyən səbəblərdən opera repertuardan çıxarılmışdır. İndi mən çox xoşbəxtəm ki, biz yenidən bu tamaşanı hazırladıq və buna görə mən bütün yaradıcı kollektivə minnətdaram"* [2, s.6].

Heydər Əliyevin yaradıcılıqlarına olan diqqətini görən Fidan və Xuraman Qasımovalar bütün çıxışlarında, istər opera teatrında, istərsə də kamera musiqisi konsertlərində onun yüksək musiqi zövqünü oxşayan ifalar təqdim edirdilər. Onlar Ulu öndərin doğum günündə, yubiley tədbirlərində məhz Heydər Əliyev üçün nəzərdə tutulan proqram tərtib etməyə çalışırdılar. Xuraman xanım bildirir ki, Heydər Əliyev klassik Qərbi Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini, xalq mahnılarını dinləməyi çox sevirdi. Bunu nəzərə alaraq, konsert repertuarının tərtib olunmasına xüsusi bir diqqətlə yanaşırdıq. Heydər Əliyev özü istedadlı olduğu kimi, ətrafdakıların da istedadını hiss edir və görürdü. O, qeyri-adi dinləyici idi və Qasımova bacılarının çıxışlarını böyük zövq və məhəbbətlə dinləyirdi. Xuraman xanımın Heydər Əliyevlə bağlı daha bir xatirəsi xüsusilə maraq doğurur: *"Bir dəfə biz İncəsənət muzeyində çıxış edirdik. Tamaşaçılar və ifaçılar arasında məsafə elə də böyük deyildi və biz hər kəsin simasını aydın görürdük. Öz ifamıza diqqət etsək də, həmin zaman Heydər Əliyevin gözlərində olan parıltını, nurlu simasında olan sevinci və bir qədər də qabağa əyilərək, böyük maraqla bizi dinləməsini müşahidə edirdik. Hələ O, bizi necə alqışladı. Bunu unutmaq olar? Yadımdadır, bir dəfə sarayda konsertdən sonra Heydər Əliyev 20 dəqiqə ayaq üstə bizi alqışladı"* [2, s.6].

Xuraman xanımın öz sözləri desək: *"Heydər Əliyevi tamaşaçılar arasında, Ona məxsus olan yerdə bizi dinləyən görmək böyük xoşbəxtlik idi"* [2, s.6].

Məlumdur ki, Heydər Əliyevin düzgün məramlı siyasətinin nəticəsində Azərbaycanın mədəniyyəti dünyada layiqli bir şəkildə təbliğ olunmuşdur. Bu baxımdan Heydər Əliyevin mədəniyyətə və incəsənətə olan münasibəti xalqımızın gələcəyi üçün düşünülmüş şəkildə həyata keçirilmişdir və çox əhəmiyyət kəsb edir. Bununla yanaşı, sənətkarları diqqəti saxlayan H.Əliyev hər zaman onlarla görüşür və yeni yaradıcılıq uğurlarına sövq edirdi.

Xuraman xanımın ailə arxivində Heydər Əliyevlə bağlı çoxsaylı fotolar və sənədlər mövcuddur. Bu çoxsaylı fotolar arasında Xuraman xanım birini xüsusilə vurğulayır. Həmin fotoda Heydər Əliyev öz xətti ilə belə bir imza qoymuşdur: *"Fidan və Xuramana sonsuz xoşbəxtlik və əbədi yaradıcılıq uğurları arzulayıram"* [2, s.6].



**Şəkil 3. Ümummilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, dünya şöhrətli balerina Mayya Plisetskaya və Qasımova bacıları**

2001-ci ildə Heydər Əliyevin fərmanı ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Xuraman Qasımova "Şöhrət" ordeni ilə təltif edilmişdir. Bu Ulu öndərin görkəmli sənətkara verdiyi yüksək dəyərin göstəricisi idi [5].

Ulu öndərin diqqət və qayğısına olan minnətdarlıq məktubunda Xuraman xanım ürək sözlərini belə ifadə etmişdir:

**"Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyevə:**

Sadə əməyimin yüksək qiymətləndirilməsini mümkün bildiyinizə görə Sizə qəlbimin dərinliklərindən gələn minnətdarlıq duyğularımı ifadə etməkdən hədsiz dərəcədə xoşbəxtəm.

Mənim "Şöhrət" ordeni ilə mükafatlandırılmağım, xeyirxahlıq və rəğbətlə dolu olan təbrik məktubunuz və nəhayət, məni çox həyəcanlandıran telefon söhbətiniz incəsənət xadimlərinə ancaq Sizə xas olan həqiqi atalıq qayğısının yeni bir təzahürüdür.

Bacım Fidan və mən fəxr edirik ki, bizim bir müğənni kimi formalaşmağımız və bütün yaradıcılığımız Sizin gözləriniz qarşısında, bizim taleyimizdə böyük rol oynamış himayəniz altında baş vermişdir. Bizə, eləcə də Azərbaycanın bütün mədəniyyət və incəsənət xadimlərinə daimi diqqətinizin hamımız üçün taleyüklü əhəmiyyəti vardır. Azərbaycan üçün çox mürəkkəb bir vaxtda Sizin nə qədər məşğul olmağınızı və həll etdiyiniz problemlərin nə qədər ağır olduğunu biz yaxşı başa düşürük. Bununla belə, ölkəmizin mədəni həyatında elə bir hadisə yoxdur ki, o, Sizin gərgin iş qrafikinizdə öz əksini tapmasın.

Əziz prezidentimiz! Bu günlərdə mənim və mənim yaxınlarımın keçirdiyimiz hissləri qısa bir məktubda təsvir etmək çox çətindir. Yüksək mükafat və təbrik məktubunuzda mənim haqqımda söylədiyiniz dəyərli sözlərə görə Sizə bir daha ürəkdən təşəkkürümü bildirirəm.

İnanın ki, bu sözlər mənim xatirimdə daim yaşayacaqdır.

Sizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı və vətənimizin çiçəklənməsi naminə çoxşaxəli fəaliyyətinizdə uğurlar diləyirəm.

**Xuraman Qasımova**
**Professor, respublikanın Xalq artisti**"
[6, s.2.]

Qasımova bacıları yaradıcılıq fəaliyyətləri dövründə H.Əliyevlə çoxsaylı görüşlərdə iştirak etmiş və ulu öndər isə gərgin iş rejiminə baxmayaraq, mümkün qədər onların ifasını canlı şəkildə dinləməyə üstünlük vermişdir. Belə maraqlı konsert proqramlarından birini xüsusilə vurğulamaq lazımdır. Belə ki, 2002-ci ildə Azərbaycan görkəmli vokal ifaçıları olan Fidan və Xuraman Qasımova bacılarının səhnə fəaliyyətinin və yaradıcılıqlarının 25 illik yubiley tədbirində əlamətdar hal idi ki, Heydər Əliyev şəxsən iştirak etmiş və çıxışı zamanı görkəmli ifaçılara səmimi ürək sözlərini bildirmişdir. Həmin gecə ən yaddaqalan və unudulmaz xatirə kimi Qasımova bacılarının yaddaşına həkk olunmuşdur.

Mərasimdə Heydər Əliyev geniş nitq ilə çıxış etmiş və görkəmli ifaçıların fəaliyyətini yüksək dəyərləndirmiş və ən səmimi ürək sözlərini bildirmişdir.

Həm dünya klassik, həm də Niyazi, F.Əmirov, S.Rüstəmov, T.Quliyev, V.Adıgözəlov kimi Azərbaycan bəstəkarlarının bəstəkarlarının əsərlərini konsertin repertuarına daxil edən Qasımova bacıları həmin gün sanki yaradıcılıq fəaliyyətlərinin böyük bir hesabatını verirdilər. Onlar üçün bu gün həm qürurlu, həm də məsuliyyətli idi.

Professional vokal oxuma sənətinin incəliklərinə bələd olan H.Əliyev onların ifaçılıq sənətini yüksək dəyərləndirmişdir. Heydər Əliyev Qasımova bacılarının

yaradıcılıqlarından bəhs edərək, onların vokal sənətinə olan münasibətini ətraflı şərh etmişdir.

Heydər Əliyev həmin çıxışında sanki hiss etmişdi ki, bu onun görkəmli ifaçılarla olan son görüşü olacaqdır. Ona görə də ulu öndər çıxışında bütün incə məqamları vurğulamışdır. O, Fidan və Xuraman Qasımova bacılarını yalnız sənət baxımından deyil, həm də bir Azərbaycan qadını, yüksək mənəvi dəyərlərə malik olan ifaçılar kimi dəyərləndirmişdir. Sənətə və sənətkara olan vurğunluğu Heydər Əliyevin bu çıxışında parlaq şəkildə əksini tapmışdır.

Milli mədəniyyətimizin Qərbi Avropa ənənələrinə olan bağlılığının və ölkəmizin müasir sivilizasiyaya uyğunlaşaraq formalaşmasının sevincini Heydər Əliyevin çıxışında duymaq mümkündür. Ulu öndər çıxışı zamanı dərindən sevdiyi Azərbaycan mədəniyyətinin inkişafına və uğurlarına olan münasibətini də bildirmişdir [7, s.1].

Çıxışının sonunda Heydər Əliyev Qasımova bacılarına olan səmimi münasibətini, onlara qəlbinin dərinliklərindən gələn ürək sözlərini çatdırmışdır.

Xuraman xanım həmin anları belə xatırlayır: *"Mən bütün bunlara qulaq asdıqca, düşünürəm ki, bizim haqqımızda belə qiymətli sözlər söyləyən dövlət rəhbərini ani də olsa unutmaq olarmı? Əsla!"* [3, s.4.]

Təəssüf ki, bu, H.Əliyevin Qasımova bacılarının iştirakı ilə son konserti oldu. Amma buna baxmayaraq, fəaliyyəti bir ömrə sığmayan ulu öndər həmin konsertdə son sanki imzasını qoymuş olsa da, Onun xatirələri hələ də davam etməkdədir. Həmin konsert böyük ruh yüksəkliyi və səmimi bir ab-hava üzərində qurulmuşdu. H.Əliyevin çıxışı zamanı yalnız musiqiçilərə məlum olan müəyyən faktları və məlumatları bildirməsi bütün zalı öz sehrinə almışdı. Qeyri-adi erudisiyaya malik olan bu böyük şəxsiyyət siyasətdən başqa həm də dərin incəsənət zövqünə malik idi. Elə bunun nəticəsidir ki, məhz Heydər Əliyevin Azərbaycan rəhbərlik etdiyi 1969-cu ildən başlayaraq, incəsənətin milli İntibahı yaşanmağa başlanmışdır. Bu böyük şəxsiyyət incəsənəti və sənətkarı dərindən duymağı bacarırdı.

Qasımova bacılarının ifasında Niyazinin "Arzu" romansı Heydər Əliyevin ən sevdiyi musiqi nömrələrindən biri idi. Elə buna görə də onlar H.Əliyevin vəfatından bir il sonra, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında dahi liderə həsr edilmiş "İthaf" adlı anım konsertində məhz bu əsəri bir daha ifa etdilər. Bu, Qasımova bacılarının Heydər Əliyevin vəfatından sonra ilk çıxışları idi. Qasımova bacıları bir il ərzində çox sevdikləri səhnədə susmaqla dahi liderə olan ehtiramlarını bildirmişlər. Həmin gecədə isə "Arzu" daha fərqli və kədərli hisslərlə səslənirdi. Bu dəfə səslənən "Arzu" artıq Heydər Əliyevin həyata keçəcək ideyalarının müjdəçisi kimi ifadə olunurdu.

Xuraman xanım Heydər Əliyevin vəfatından sonra ifa etdiyi Vasif Adıgözəlovun "Natəvan" operası haqqında fikirlərini belə ifadə etmişdir: *"Hər dəfə bu əsərdə çıxış edərkən düşünürəm ki, kaş Heydər Əliyev də bu tamaşaya baxaydı, salonda əyləşərdi. Onda tamaşa başqa cür keçirilərdi. Ancaq mən yenə təkrar*

*edirəm. Hər dəfə səhnəyə çıxanda Heydər Əliyevi öz kürsüsündə əyləşən görürəm. Mən və Fidan xanım bu gündən sonra da var gücümüzlə çalışırıq ki, Azərbaycanın vokal sənətini daha da yüksəklərə qaldıraq. Bizə dahi rəhbərimizin verdiyi bütün fəxri adları doğruldaq. Çünki Heydər Əliyev bizim üçün dünyasını dəyişməyib. O, daima yaşardır, həmişə gözümüz önündədir. Əzəmətli gur səsi, səlis danışığı qulaqlarımızdadır”* [3, s.4.]

Xuraman xanım bildirir ki, *“Heydər Əliyev daim mədəniyyətlə bağlı və öz problemlərimiz haqqında bizimlə danışanda, məsləhətləşəndə həddindən artıq çox işi olan bütün günü respublikanın inkişafı üçün çalışan prezidentimizi yormaq istəməzdik. Təbii ki, bizim də özümüzə görə çoxlu problemlərimiz var idi. Bu müdrik insan elə bir şəxs idi ki, özü suallar verərdi, aldığı cavablardan bilərdi, nə var, nə yox. Sanki bu insan qəlbləri oxuyurdu”* [2, s.4.]

Heydər Əliyev dahiyanə surətdə mədəniyyətin və incəsənətin inkişafının ölkəmiz üçün əhəmiyyətini duymuşdur. Ulu öndər böyük uzaqgörənliklə əmin idi ki, güclü dövlət qurmaq, sivil cəmiyyət yaratmaq, sabitliyi təmin etmək və stabil cəmiyyət yaratmağın yolu məhz mədəniyyətdən başlayır. Bununla da, H.Əliyev Azərbaycanın bütün istiqamətlərdə sürətli inkişafı üçün real zəmin yaradılmasını əldə etmişdir. H.Əliyevin dövlət xadimi və ölkə rəhbəri kimi uğurunun kökündə isə onun mədəniyyətə yüksək qiymət verməsi dayanırdı. Ulu öndərin kamilliyinin ən mühüm aspektlərindən biri də onun mədəniyyət xadimlərinə olan münasibəti idi. Bu baxımdan məqaləni Xuraman xanımın fikirləri ilə tamamlamaq istərdik: *“Heydər Əliyev fenomeni haqqında saatlarla, günlərlə danışmaq mümkündür. Biz onun haqqında danışarkən göz yaşımızı saxlaya bilmirik. Mən səmimi hisslərlə deyirəm: Heydər Əliyev bizim üçün mənəvi ata, hörmətli ağsaqqal, müdrik rəhbər idi”* [3, s.4.]

## Ədəbiyyat siyahısı:

1. Mədəniyyət hər bir xalqın dünyadakı vizit kartıdır / [Elektron resurs] / URL:https://mehribanaliyeva.preslib.az/media-583bd3f3c0.html
2. Газета «Бакинский рабочий». –2006, 6 июня. – с.5-6.
3. Naxçıvan qəzeti. – 2004, 08-15 oktyabr, – s.4.
4. Azərbaycan Mədəniyyətinin Dostları Fondu yaradılmışdır / [Elektron resurs] / URL:https://mehribanaliyeva.preslib.az/media-u908oshqfw.html
5. X.Ə.Qasımovanın “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında / [Elektron resurs] / URL: https://e-qanun.az/framework/3556
6. X.Ə.Qasımovanın məktubu // Azərbaycan qəzeti. – 2001, 15 iyun, – s.2
7. Heydər Əliyevin nitqi / [Elektron resurs] / URL:https://azertag.az/xeber/azerbaycan_musiqi_medeniyyetinin_gorkemli_numayendeleri_fidan_ve_xuraman_qasimovalarin_yaradiciliginin_25_illiyine_hesr_olunmus_tenteneli_merasimde_azerbaycan_prezidenti_heyder_eliyevin_nitqi-971965

8. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xalq artistləri Fidan və Xuraman Qasımovaları qəbul etmişdir / [Elektron resurs] / URL: https://azertag.az/xeber/azerbaycan_prezidenti_heyder_eliyev_xalq_artistleri_fidan_ve_xuraman_qasimovalari_qebul_etmisdir-971341

**Нигяр Акиф кызы Маликова**

## Значение общенационального лидера Гейдара Алиева в развитии вокального искусства Хураман Касимовой

**Резюме:** В представленной статье говорится об заботе общенационального лидера азербайджанского народа Гейдара Алиева о представителях культуры и искусства. Исходя из этого, уделено внимание со стороны великого лидера Гейдара Алиева к представителям азербайджанской вокальной школы Фидан и Хураман Касимовых и искусству вокального исполнительства. Основное направление статьи воспоминания профессора Хураман Касимовой о Гейдаре Алиеве. В статье также рассматриваются концертная деятельность связанная с лидером и его участие в концертах, в ценных рекомендациях по творческому пути певиц.

**Ключевые слова:** Гейдар Алиев, Хураман Касимова, воспоминания, вокал, опера, концерт

**Nigar Akif gizi Malikova**

## The importance of national leader Heydar Aliyev in the development of Khuraman Gasimova`s vocal art

**Summary:** The presented article talks about Heydar Aliyev`s care, about representatives of culture and art. Based on this, the attention of Heydar Aliyev was paid to the representatives of the Azerbaijani vocal school Fidan and Khuraman Gasimovas and the art of vocal performance. The main focus of the article is the memoirs of Professor Khuraman Gasimova about Heydar Aliyev. The article also discusses concert activities associated with the leader and his participation in concerts, providing valuable recommendations on the creative path of singers.

**Key words:** Heydar Aliyev, Khuraman Gasimova, memories, vocal, opera, concert

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.09.2023**